# Bərpa-quruculuq işləri heyranlıq doğurur



***Azərbaycan xalqı hazırkı dönəmdə öz qədim tarixinin ən şanlı və şərəfli günlərini yaşayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yüksək qətiyyəti, rəşadətli Milli Ordumuzun igid əsgər və zabitlərinin qeyri-adi şücaətləri və fədakarlıqları sayəsində ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur.***

***Hər bir azadlıqsevər xalq üçün bundan böyük xoşbəxtlik sadəcə təsəvvür etmək belə çətindir! Dünyanın son yarım əsrlik tarixinə nəzər salaq. Son onillər ərzində aşkar haqsızlığa, təcavüzə məruz qalmış çox az ölkəyə, onun xalqına bizim Qarabağda əldə etdiyimiz parlaq qələbəyə bənzər uğur əldə etmək müyəssər olub.***

Bu möhtəşəm zəfər, ilk növbədə xalqla dövlətin sarsılmaz birliyi sayəsində mümkün olub. Dünya bunun fərqindədir və Azərbaycan xalqının ədalətli mücadiləsini yüksək dəyərləndirir. Azərbaycan dövlətindən öyrənmək, xalqımızn haqq savaşından nümunə götürmək istəyənlərin sayı isə durmadan artır.

Azərbaycan xalqı həm də ona görə xoşbəxtdir ki, onun çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən biri sayılan İlham Əliyev kimi müdrik rəhbəri var. Xalqımız öz liderinə inanır, ona güvənir və Prezidentin daxili və xarici siyasətini birmənalı olaraq dəstəkləyir. Cənab İlham Əliyev isə daim maraqlarına sonsuz sədaqətlə xidmət etdiyi xalqından ilham və güc alır.

Azərbaycan vətəndaşlarını ötən ilin payızında 44 günlük Vətən müharibəsində böyük əzm, cəsarət və qətiyyət nümayiş etdiriblər. Bu gün eyni həvəs və şövqlə xalqımız doğma Qarabağda, işğaldan azad edilmiş ərazilərdə qurub-yaradır. Burada həyata keçirilən bərpa-quruculuq işlərinin həcmi və vüsəti hər kəsdə sadəcə heyranlıq doğurur.

Bu gün işğaldan azad edilmiş rayonlarda eyni vaxtda üç aeroport inşa edilir. Ərazilərdə yollar çəkilir, məktəblər, baxçalar, yaşayış evləri inşa edilir, digər infrastruktur layihələri uğurla icra edilir. Bütün bunlar böyük şövqlə, səliqə ilə görülür. Bəli, el bir olanda dağ oynadar yerindən. Bu gün Azərbaycan xalqı Qarabağda möcüzələr yaradır. Allah xalqımızı, dövlətimizi, Prezidentimizi qorusun!

İşğaldan azad edilmiş ərazilərin, demək olar ki, hər bir guşəsində geniş tikinti-quruculuq işləri gedir. Qarabağın gözü olan, gözəl və bənzərsiz Şuşada görülən işləri isə hər dəfə televiziyadan müşahidə edəndə, xüsusilə çox sevinirəm, qəlbim köksümə sığmır. Qalib, şanlı Vətənin vətəndaşı olaraq çox qürurvericidir!

Prezident İlham Əliyev üçün Azərbaycan torpağının hər bir guşəsi əzizdir. Mənə elə gəlir ki, dövlətimizin başçısı Şuşaya bir qədər fərqli, daha məhrəm, xüsusi bir məhəbbət bəsləyir. Bu da təbiidir. Axı Şuşa bizim milli mədəniyyətimizin beşiyidir.

Bu il avqustun axırlarında möhtərəm Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyeva növbəti dəfə Şuşaya səfər edərək



burada bir neçə sosial və mədəni obyektin açılışını ediblər. Bəli, Şuşa bu gün əvvəllər olduğundan da gözəl bir məkana çevrilir. Dahi Üzeyirin, təkrarsız Bülbülün ruhları indi necə də sevinirlər!

Şuşanın mədəni həyatı canlanır. Bu il avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər.

Cənab İlham Əliyev tədbirdə dərin məzmunlu, parlaq çıxışında deyib: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq."

Bəli, Şuşa artıq azaddır, bu, həqiqətdir. Burada qarşıdakı aylar, illər, qərinələr ərzində çox sayda festivallar, poeziya günləri, başqa mədəni tədbirlər keçiriləcək.

Bundan sonra heç bir qüvvə Şuşanı Qarabağdan, Qarabağı Azərbaycandan ayıra bilməz. Mən qəlbimdən dilimə axan bu qeydlərimi möhtərəm Prezidentimiz İlham Əliyevin həmin tədbirin sonunda söylədiyi gözəl və mənalı sözlərlə bitirmək istəyirəm: "Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!"

***Məhsəti ƏLİYEVA,***
***Azərbaycan Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.-2021.- 12 sentyabr.- S.5.